***1990-cı il dekabrın 18-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Konvensiya qəbul edilmişdir. Bu Konvensiya Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 11 dekabr tarixli qanunu ilə ratifikasiya olunmuşdur. 2000-ci ildən etibarən dekabrın 18-i dünyada Beynəlxalq Miqrant Günü kimi qeyd olunur. Bu gün dünyada miqrasiya proseslərinin tənzimlənməsi, miqrantların hüquqlarının qorunması ən aktual problemlərdən biridir. Çünki təəssüf hissi ilə deməliyik ki, miqrasiya mənfi qlobal proseslər – milliyyətçilik, populizm, iqtisadi mühafizəkarlıq və artan antimiqrant əhval-ruhiyyəsi və siyasətləri fonunda baş verir və yaranmış vəziyyət təhlükəli hal alır.***

# Miqrantların hüquqlarının müdafiəsi və onların cəmiyyətə inteqrasiyası sahəsində əsaslı tədbirlər görülür

***Firudin NƏBİYEV,***
***Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi,***
***II dərəcəli dövlət miqrasiya xidməti müşaviri***



Statistik məlumatlara görə, dünyada 1 milyarddan çox miqrant var. Onların 250 milyonu beynəlxalq miqrantlar, yəni başqa ölkələrə, 750 milyonu isə ölkələrinin daxilində miqrasiya edənlərdir. Proqnozlar göstərir ki, 2030-cu ildə dünya əhalisinin 60 faizi şəhərlərdə məskunlaşacaq. Araşdırmalar inkişaf etməkdə olan ölkələr arasında miqrasiyanın həcminin artdığını deməyə əsas verir. Həmçinin tədqiqatlar göstərir ki, beynəlxalq miqrantların əksəriyyətini əməkçi miqrantlar təşkil edir.

Beynəlxalq miqrantlar tərəfindən mənşə ölkələrində qalan ailə üzvlərinə göndərdikləri pul baratlarının 2016-cı il üçün hesablanan ümumi həcmi 601 milyard dollardır. Bu məbləğ dünyada göstərilən bütün xarici yardımların ümumi məbləğindən iki dəfə çoxdur və az qala bütün xarici investisiyaların məbləğinə bərabərdir.

Hazırda bəşəriyyət İkinci dünya müharibəsindən sonra ən böyük qaçqın və məcburi köçkün axınına şahid olur. İndi dünyada ümumilikdə 65,3 milyon şəxs məcburi olaraq öz yurd-yuvasından didərgin düşmüş – qaçqın və məcburi köçkünə çevrilmişdir. Avropanın rekord həddə sığınacaq müraciəti qəbul etməsinə baxmayaraq, qaçqınların böyük əksəriyyəti – təxminən 86 faizi hələ də kasıb və ya inkişaf etməkdə olan ölkələr tərəfindən məskunlaşdırılır.

Doğrudur, 2016-cı il bir neçə aspektdən miqrasiya üçün əhəmiyyətli il olmuşdur. BMqT-nin BMT sisteminə daxil olması, qaçqınlar və miqrantlarla bağlı Nyu-York Bəyannaməsinin qəbulu bunu deməyə əsas verir. Nyu-York Bəyannaməsi qaçqınların və miqrantların həyatlarını, hüquqlarını qorumaq üçün beynəlxalq ictimaiyyətin siyasi iradəsini özündə ehtiva edir. Bəyannaməni mahiyyətcə bərabər olan iki hissəyə bölmək olar. Birinci hissə miqrantların sağlamlığını, ləyaqətini, əsas insan hüquq və azadlıqlarını qorumaq üçün üzv dövlətlərin dərhal icra etməli olduğu öhdəlikləri əhatə edirsə, ikinci hissədə təhlükəsiz, nizamlı və qanuni miqrasiya üçün ayrı, qaçqınlar üçün ayrı olmaqla 2018-ci ildə qəbulu nəzərdə tutulan qlobal vəhdətə aparacaq hökumətlərarası prosesə başlamaq barədə üzv dövlətlərin niyyətini əks etdirir. Qlobal vəhdət miqrasiya sahəsində daha geniş əməkdaşlıq üçün çərçivə rolunu oynayacaq. Çünki demoqrafik təzyiqlər fonunda miqrasiyanın idarəedilməsinə qanunçuluq, insan hüquq və azadlıqlarına hörmət və ləyaqət prinsiplərini rəhbər tutan yanaşmanın nümayiş etdirilməsi vaxtıdır.

Ulu öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycan Respublikası üçün miqrasiya proseslərinin beynəlxalq normalara uyğun tənzimlənməsinin təmini, miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi prioritet istiqamətlərdəndir. Dünyada cərəyan edən qloballaşma fonunda Azərbaycan regionda gedən miqrasiya proseslərinə təsir etmək, ölkə ərazisinə olan miqrasiya axınlarını nəzarətdə saxlamaq və ölkə daxilində miqrasiya proseslərini yerli qanunvericiliyə uyğun idarə etmək və tənzimləmək üçün fəal miqrasiya siyasəti yeridir.

Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlarının təzahürü kimi Azərbaycanda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin bütün hüquq və azadlıqları – sərbəst hərəkət etməsi və yaşayış yeri seçməsi, təhsil alması, əmək fəaliyyəti ilə məşğul olması, səhmdar və sahibkar kimi fəaliyyət göstərməsi, şəxsi toxunulmazlığı, mənzil toxunulmazlığı, istirahət etməsi, sağlamlığının qorunması, vicdan azadlığı tam təmin olunur.

10 illiyini qeyd etməyə hazırlaşan Dövlət Miqrasiya Xidməti beynəlxalq təcrübənin öyrənilməsinə hər zaman xüsusi diqqət yetirir. Belə ki, ikitərəfli və çoxtərəfli əsaslarla münasibətlərin inkişaf etdirilməsi, dialoqun gücləndirilməsi, miqrasiya sahəsində təcrübə mübadiləsinin aparılması və tətbiqi, miqrasiya proseslərinin tənzimlənməsi, qanunsuz miqrasiyanın qarşısının alınması, əməkçi miqrantların hüquqlarının müdafiəsinin gücləndirilməsi, qaçqın və sığınacaq axtaranların inteqrasiyası və digər sahələrdə əməkdaşlıq perspektivlərinin müzakirə olunması məqsədilə son illərdə əhəmiyyətli addımlar atılmışdır. Birləşmiş Millətlər Təşkilatı, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq Miqrasiya Təşkilatı, Avropa İttifaqı, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz, Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Əmək Təşkilatı, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi təşkilatlarla əməkdaşlıq inkişaf edir.

2012-ci ildə Azərbaycan Respublikası BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə tamhüquqlu üzv seçildikdən sonra iki qurum arasında əməkdaşlıq əlaqələri daha da genişlənmişdir. Əməkdaşlığın yüksək səviyyədə olması istər rəhbər, istərsə də işçi qaydada baş tutan qarşılıqlı səfərlərdə də özünü büruzə verir.

Məlum olduğu kimi, Müstəqil Dövlətlər Birliyi Miqrasiya Orqanları Rəhbərləri Şurasının 19-cu iclası bu il oktyabrın 12-də Bakı şəhərində yüksək səviyyədə keçirilmişdir. Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) təşkilatçılığı ilə noyabrda Vyana şəhərində keçirilən Miqrasiya Konfransında Azərbaycan nümayəndə heyəti fəal iştirak etmişdir.

Ötən illər ərzində miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası bir sıra ölkələrlə sazişlər imzalamışdır.

İkitərəfli münasibətlər əsasında Türkiyə, Fransa, Monteneqro, Almaniya Federativ Respublikası, İsveç Krallığı, İsveçrə Konfederasiyası, Benilüks dövlətləri (Belçika Krallığı, Lüksemburq Böyük Hersoqluğu və Niderland Krallığı), Latviya, Estoniya, Rusiya Federasiyası, Qazaxıstan, Belarus, Moldova, Gürcüstan, Pakistan İslam Respublikası və digər ölkələrlə miqrantların sosial müdafiəsi sahəsində əməkdaşlıq əlaqələri genişləndirilir, birgə layihələr həyata keçirilir, onların qanuni miqrasiya, miqrasiyanın effektiv idarə olunması, readmissiya, könüllü qayıdış, eyni zamanda, miqrasiya sahəsində qabaqcıl və innovativ xarakterli təcrübələri öyrənilir.

Miqrasiya sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi baxımından Azərbaycan Respublikasının əsas tərəfdaşı kimi çıxış edən Beynəlxalq Miqrasiya Təşkilatı ilə Xidmət arasında əməkdaşlıq ən yüksək səviyyədə qurulmuşdur. Belə əməkdaşlıq çərçivəsində BMqT ilə birgə Azərbaycanda miqrantların hüquqlarının qorunması, insan alverinə qarşı mübarizə, readmissiya idarəçiliyi, potensialların artırılması ilə bağlı bir sıra layihələr həyata keçirilmişdir. Hazırda BMqT ilə "Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsi (2014-2017) uğurla reallaşdırılır. Bu layihə çərçivəsində görülmüş işlərdən biri Dövlət Miqrasiya Xidməti tərəfindən təyin olunmuş cərimələrin "ASANPAY" ödəniş sistemi vasitəsilə ödənilməsi proqramının Xidmət tərəfindən hazırlanması və artıq istifadəyə verilməsi olmuşdur.

Qeyd olunanlarla yanaşı, bu il dekabrın 8-də Cenevrədə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Beynəlxalq Miqrasiya Təşkilatı arasında Azərbaycandan Miqrantların Könüllü Qayıdışına Yardım üzrə Pilot Layihənin həyata keçirilməsinə dair əməkdaşlıq Sazişi"ni imzalanmışdır. Pilot layihənin əsas məqsədi könüllü olaraq öz ölkələrinə dönmək arzusunda olan, sığınacaqla təmin olunmaq istəyinə rədd cavabı almış şəxslərin və həssas miqrantların mənşə ölkələrinə uğurla qayıtmaları üçün əlverişli şərait yaradılmasından ibarətdir. Böyük əhəmiyyətə malik bu sazişin imzalanma mərasimində BMqT-nin baş direktoru Uilyam Leysi Svinq ötən il ölkəmizə səfərini və səfər zamanı dövlət başçısı ilə görüşünü xatırladı, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında yaradılmış sabitliyi və mütərəqqi miqrasiya idarəçiliyi modelini, eləcə də ölkədə multikultural dəyərlərə verilən önəmi bir daha vurğuladı, həmçinin könüllü qayıdışa yardım çərçivəsində imzalanan sazişi qarşılıqlı inam və etimadın nümunəsi kimi səciyyələndirdi.

Əlbəttə, Prezident İlham Əliyevin rəhbərliyi altında respublikada enerji və nəqliyyat sahələrində beynəlxalq və regional layihələrin həyata keçirilməsi, Azərbaycanda mövcud olan ictimai-siyasi və iqtisadi sabitlik, biznes sahəsində əlverişli şəraitin yaradılması, yüksək templi iqtisadi inkişaf əcnəbilərin ölkəmizə axınına səbəb olan əsas amillərdir. Həmçinin ölkəmizdə tolerantlığın yüksək səviyyədə olması miqrasiya proseslərinə təsir edən amil kimi qeyd edilməlidir. Bununla əlaqədar olaraq vurğulanmalıdır ki, bu günə qədər Azərbaycanda miqrantlara münasibətdə milli, etnik və dini zəmində hüquq pozuntusu qeydə alınmamışdır. Lakin biz qaçqın və miqrant dalğası fonunda Avropada islamofobiya meyillərinin artması və əsassız olaraq islam dininin zorakılıq və terrorçuluqla eyniləşdirilməsi cəhdləri ilə bağlı öz dərin narahatlığımızı ABŞ-ın Nyu-York şəhərində BMT Baş Assambleyasının bu ilin sentyabrında "Qaçqın və miqrantların böyük axınının aradan qaldırılması" mövzusunda yüksək səviyyəli görüşündə, tədbir çərçivəsində keçirilən "Qaçqın və miqrantlar, habelə köçürülmə ilə bağlı məsələlər üzrə beynəlxalq tədbirlər və əməkdaşlıq: qabaqdakı yol" adlı "dəyirmi masa"da, Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı İcraiyyə Komitəsinin 67-ci sessiyasında, sessiya çərçivəsində BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandi ilə, Beynəlxalq Miqrasiya Təşkilatının Baş direktoru Uilyam Leysi Svinq ilə görüşlərdə də ifadə etmişik.

Bu gün dünyada qaçqın və məcburi köçkün problemi çox kritik bir həddə çatmışdır. Əlbəttə, məcburi köçkünlərin ağır vəziyyəti və ehtiyacları heç cür diqqətdən kənarda qalmamalıdır və buna görə də beynəlxalq ictimaiyyətin bu problemin həllinə münasibətdə ümumi və vahid yanaşmadan çıxış etməsi zəruridir. Münaqişədən əziyyət çəkmiş ölkə kimi biz qaçqınların və məcburi köçkünlərin iztirablarını çox yaxşı başa düşürük. Təcavüzkar Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi nəticəsində 1 milyondan çox azərbaycanlı öz daimi yaşayış yerlərindən qovularaq qaçqın və məcburi köçkün düşmüşdür. İşğal olunmuş ərazilərin Ermənistan silahlı qüvvələrindən azad edilməsi ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş 4 qətnamə, təəssüf ki, icra olunmur. Qeyd etmək lazımdır ki, azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtması üçün beynəlxalq birliyin tələbinin yerinə yetirilməsi onların hüquqlarının hərtərəfli təminatı baxımından olduqca zəruridir.

Hazırda dünyada 10 milyona yaxın vətəndaşlığı olmayan şəxs var. Azərbaycan Respublikası vətəndaşsızlıq halları ilə mübarizə sahəsində məlumatlılığın artırılması və bu şəxslərin hüquqlarının səmərəli müdafiəsi naminə əməkdaşlığın gücləndirilməsi məqsədilə 2015-ci ildən BMT QAK-ın "10 ilə vətəndaşsızlığa son" kampaniyasına qoşulmuşdur. Kampaniya çərçivəsində ölkənin bütün regionları üzrə müvafiq işlər görülməkdədir. Belə ki, vətəndaşsızlıq hallarının azaldılması, bununla mübarizə sahəsində məlumatlılığın artırılması, uzun müddət ölkə ərazisində yaşayan və hər-hansı bir dövlətin vətəndaşlığına mənsubiyyətini təsdiq edən sənədlərə malik olmayan şəxslərin hüquqi statusunun müəyyən olunması, sənədləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü işlər uğurla davam etdirilir.

Həqiqət budur ki, öz hüquqlarını bilməyən şəxs hər an insan alverinin qurbanına çevrilə bilər. Ona görə də Dövlət Miqrasiya Xidməti ictimaiyyətin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məlumatlandırılması üçün müntəzəm olaraq maarifləndirmə tədbirləri həyata keçirir. Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə təsis edilmiş 18 iyun "İnsan Hüquqları Günü" ilə bağlı bu il Göygöldə, Qobustanda, Yevlaxda, Lənkəranda insan hüquq və azadlıqlarından bəhs edən mövzularda tədbirlər keçirilmişdir. İnsan hüquq və azadlıqlarından bəhs edən mövzularda keçirilən genişmiqyaslı tədbirlərdə Xidmət əməkdaşları, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri, sahibkarlar, ictimaiyyət nümayəndələri, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iştirak etmişlər. Tədbirlərdə respublikamıza təşrif buyuran hər bir əcnəbinin hüquq və azadlıqlarının qanunla qorunduğu, Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasında miqrasiya proseslərinin idarəedilməsi və tənzimlənməsi ilə bağlı görülən işlər, beynəlxalq təcrübənin öyrənilməsi, qanunvericiliyə edilən yeniliklər barədə məlumat verilmişdir. Vətəndaşsızlığın aradan qaldırılması, əcnəbi işçi qüvvəsindən istifadə qaydaları, qanunsuz miqrasiyaya qarşı ciddi mübarizə tədbirlərinin görüldüyü diqqətə çatdırılmışdır. Eləcə də Dövlət Miqrasiya Xidməti regional miqrasiya idarələrinin xidmət ərazilərinə aid olan Mingəçevir, Ağcabədi, Zərdab, Ağdaş, Ucar və Ağdamda, Zaqatala, Qax, Qəbələ və Balakəndə, Samux, Şəmkir, Naftalan, Daşkəsən, Gədəbəy və Tovuzda, Sabirabad, Saatlı, Beyləqan, Füzuli və İmişlidə, Xaçmaz, Şabran, Qusar, Xudat, Siyəzən və Qubada, Biləsuvar, Cəlilabad və Yardımlıda, Kürdəmir və Ağsuda maarifləndirmə tədbirləri keçirmiş, Mingəçevir, Zaqatala, Balakən, Qax, Qusar, Ağcabədi, Zərdab, Şəmkir, Balakən və İmişlidə həm də səyyar xidmətlər təşkil etmişdir.

"Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq Salyan və Neftçala şəhərlərində əcnəbilər və vətəndaşlığı olamayan şəxslər, ictimaiyyət və mətbuat nümayəndələri üçün "Açıq qapı günü" təşkil olunmuşdur.

Həmçinin əcnəbi uşaqların yerli şəraitə uyğunlaşdırılmaları, təhsilləri, uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı qanunvericilikdən irəli gələn məsələlər də Xidmət tərəfindən diqqətdə saxlanılmışdır.

Dövlət Miqrasiya Xidməti əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ətraflı məlumatlandırılması və maarifləndirilməsi üçün mütəmadi olaraq xidmətin fəaliyyətini, miqrasiya prosedur qaydalarını özündə əks etdirən yazıların mətbuatda dərc olunmasına, informasiya agentliklərində işıqlandırılmasına, verilişlərin, videomateriallarin və filmlərin hazırlanaraq telekanallarda yayımının təşkilinə xüsusi yer ayırmışdır. Bunlarla yanaşı, DMX-nin təqdim etdiyi və elektron hökumət portalına inteqrasiya edilmiş elektron xidmətlərlə bağlı 11 videotəlimat hazırlanmış və istifadəçilərə təqdim olunmuşdur. Ümumiyyətlə, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün əhaliyə elektron xidmətlərin göstərilməsi zəruriliyi nəzərə alınaraq DMX tərəfindən elektron xidmətlərin göstərilməsi işi təmin edilmişdir. Bu gün də Xidmətdə informasiya-kommunikasiya texnologiyaları strategiyasının icrası və inkişafı, yeni hesabat altsistemi proqram təminatının hazırlanması, informasiya sistemlərinin yaradılması məqsədilə kompleks tədbirlər davam etdirilir. Dövlət başçısının müəyyən etdiyi strategiyaya uyğun olaraq elektron xidmətlərin sferası genişləndirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, Azərbaycan uğurlu miqrasiya idarəçiliyi modelini qura bilmişdir. Bu faktı beynəlxalq təşkilatların, bir sıra ölkələrin müvafiq strukturlarının nümayəndələri də dəfələrlə qeyd etmişlər. Dövlət Miqrasiya Xidmətinin hər bir əməkdaşının amalı bu etimadı bundan sonra da layiqincə doğrultmaqdır.